ORTA ƏSRLƏRDƏ MEMARLIĞIN İNKİŞAFI

Ərəb xilafətinin yüksəlişi dövründə Azərbaycan memarlığının inkişaf mərkəzi Bərdə şəhəri idi. Mənbələrdə "bu yerlərin Bağdadı" adlandırılan Bərdədə geniş tikinti işləri aparılmış, çoxlu məscid və başqa dini binalar, karvansara, bazar, hamam və s. tikilmişdi. IX-X yüzillərdə Xilafətin zəifləməsi nəticəsində Azərbaycanda kiçik feodal dövlətlərin yaranması ilə bağlı X-XII yüzillərdə müxtəlif memarlıq məktəbləri yarandı (Aran, Təbriz, Naxçıvan, Şirvan, Abşeron). Azərbaycan memarlıq məktəbləri arasında ümumi üslub yaxınlığı var idi. Aran memarlıq məktəbinə (Gəncə, Bərdə, Beyləqan) mənsub sənətkarların yaratdığı binaların əksəriyyəti Gəncə zəlzələsi (1139) və monqol hücumları (XIII yüzil) zamanı dağılmışdır. Gəncə və Beyləqanda aparılan arxeoloji tədqiqatlar bir sıra qurğu və bina qalıqlarını aşkara çıxarmışdır. Gəncə çayı üzərindəki 3 körpü (XII yüzil), Beyləqandakı yaşayış binaları, hamam və s. qalıqları Aran memarlıq məktəbinin üslub özəllikləri haqqında aydın təsəvvür yaradır.

Naxçıvan memarlıq məktəbinin abidələri binalarda çox boyalı kaşıdan ornamentli baştağ kompozisiyalarının tətbiqi, Şirvan-Abşeron məktəbinə mənsub tikililər sadə memarlıq bölgüləri və dekorativ oyma bəzəkləri ilə seçilir. Təbriz məktəbinin ən yaxşı abidələri üçün memarlıq quruluşunun dəbdəbəliyi, dekorların müxtəlifliyi səciyyəvidir.

Dövrümüzədək çatmış mütənasib quruluşlu, zəngin dekorlu qülləvarı türbələr və digər tikililərdə Naxçıvan məktəbinin üslub özəllikləri əksini tapmışdır. Bu məktəbin ən yüksək zirvəsini Naxçıvandakı Yusif ibn Küseyr (1162) və Mömünə xatın (1186) türbələrinin, eləcə də hazırda mövcud olmayan dini tikililər kompleksinin müəllifi memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaradıcılığı təşkil edir. Əcəminin yaradıcılığı üçün obrazın monumentallığı, kompozisiyanın mütənasibliyi və dekorların zərifliyi, öz dövrünə görə rasional konstruksiyaların tətbiqi, ornament bəzəklərinin oynaqlığı səciyyəvidir. Onun ornament kompozisiyaları bədiiliklə riyazi təfəkkürün üzvi birləşməsinə əsaslanır. Əcəminin yaratdığı kompozisiya və dekorativ bəzək üsulları Azərbaycanın, eləcə də müəyyən ölkələrin türbə tikililərinə böyük təsir göstərmişdir. Marağadakı "Göy günbəz" türbəsi (1196, memar Əhməd Məhəmməd oğlu) Əcəmi üslubuna yaxındır. Marağa abidələri Azərbaycan memarlığının inkişafında önəmli yer tutmuşdur. Bunlardan dövrümüzədək çatmış ən qədimi "Qırmızı günbəz" türbəsidir (1148, memar Bəkir Məhəmməd). Bu dövrdə Urmiyada tikilmiş "Üç günbəz" türbəsi (1185, memar Əbu Mənsur Musa oğlu) memarlıq quruluşuna görə Marağa abidələrinə yaxındır.

Naxçıvan məktəbinin kərpic tikililərində formalaşmış memarlıq üsulları daşdan tikilmiş türbələrdə — Naxçıvan MR-nın Cuğa kəndi yaxınlığındakı Gülüstan türbəsində (XIII yüzilin əvvəli), Füzuli rayonunun Babı kəndindəki Şeyx Babı Yəqubi türbəsində (1273-1274 memarı Əli Məcidəddin olması güman edilir) və Aşağı Veysəlli kəndindəki Mirəli türbəsində (XIII-XIV yüzillər) əksini tapmışdır. Bərdədə (1322, memar Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani) və Naxçıvan MR-nın Qarabağlar kəndində (qoşa minarəli türbə; minarələr XII yüzil - XII yüzilin əvvəli, türbə XIV yüzilin əvvəli) qalmış türbələrin oxşarlığına və hər ikisinin XIV yüzilin əvvəlində tikilməsinə əsasən bu abidələrin eyni memar tərəfindən yaradıldığı ehtimal olunur.

X-XII yüzillərdə yaşayıb yaratmış bir çox Azərbaycan memarları, bənnaları və memarlıq bəzəyi ustalarının adları müxtəlif tikililərin kitabələrində, daş plitələrində, dekorativ bəzək məmulatlarında və digər qaynaqlarında dövrümüzədək çatmışdır. Bunlardan Məhəmməd ibn Cəfər

(Beyləqan rayonundakı "Peyğəmbər" qəbiristanlığındakı kitabəli plitə X yüzil), İbrahim ibn Osman (Gəncə darvazası, 1063), Məhəmməd Əbubəkr oğlu (Bakıda Sınıqqala məscidi, 1078), Möhsün (XI yüzil; əsərləri məlum deyil), onun oğlu Bəndan ibn Möhsün (XII yüzil; əsərləri məlum deyil), nəvəsi Bəkir Məhəmməd (Marağada "Qırmızı günbəz" türbəsi 1148), Əcəmi Əbubəkr oğlu Naxçıvani (Naxçıvanda Yusif ibn Küseyir türbəsi, 1162, Mömünə xatın türbəsi 1186 və s.), Aşur İbrahim oğlu (İçərişəhərdəki İbrahim məscidinin daş mehrabı, 1171), Əmirəddin Məsud (XII yüzil; əsərləri məlum deüyil), Əbu Mənsur Musa oğlu (Urmiya ş. yaxınlığında "Üç günbəz" türbəsi, 1185), Əhməd Məhəmməd oğlu (Marağada "Göy günbəz türbəsi, 1196), Məsud Davud oğlu (Bakıda Qız qalası, XII yüzil), cəmaləddin (indiki Naxçıvan MR-nın Xanağa kəndindəki Əlincəçay xanəgahında türbə, XII yüzilin sonu - XIII yüzilin əvvəli), Əhməd Əbubək oğlu (XIII yüzil, Mərənd; əsərləri bəlli deyil), Əbdülməcid Məsud oğlu (Mərdəkanda dairəvi qəsr, 1232), Zeynəddin Əburəşid oğlu Şirvani (Bakı limanında Şirvanşahların "Bayıl qəsri" iqamətgahı, 1235), Bədrəddin Təbrizi (Türkiyənin Konya şəhərində (cəlaləddin Ruminin türbəsi 1273), Məhəmməd ibn Mahmud (Arran; Turkiyənin Amasiya şəhərində) məscid minarəsi, 1236-46), Mahmud ibn Maqsud (Pirsaatçay xanəgahının minarəsi, 1256), Mahmud ibn Məsud (Bakıdakı Şəfiulla məscidi; XIV yüzil), nəqqaş Əbdülmömin Şərəfşah oğlu (Təbriz; Urmiyada məscid mehrabının oyma naxışları, 1277), Mahmud Səd oğlu (Bakı yaxınlığında Nardaran kəndindəki qəsr, Bibiheybət məscidinin minarəsi, 1305-13), Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani (Bərdə türbəsi, 1322), gəctəraş Nizam Bəndgir (Mərənd şəhərindəki Gümə məscidinin gəcdən oyma bəzəkləri, 1329), Hacı Məhəmməd (Təbriz; İsfahanda karvansara, 1331), Şahbənzər (Ağdamın Xaçındərbətli kəndində türbə, 1314), Kəştasif Musa oğlu (Nardaran Xan hamamı, 1388) və b. X-XIV yüzillərdə Azərbaycan memarlığının ən dəyərli örnəklərini yaratmışdır.

XII-XIII yüzillərdə Azərbaycanda bir sıra möhtəşəm körpülər salınmışdır. Bunlardan Araz çayı üzərindəki 15 aşırımlı (XII yüzil) və 11 aşırımlı (XIII yüzil) Xudafərin körpüləri, indiki Qazax rayonundakı 4 aşırımlı Sınıq körpü (Qırmızı körpü, XII yüzil), Gəncəçayın üzərində salınmış 3 körpü (qalıqları; XII-XIII yüzillər), Güney Azərbaycanında Minayə ş. yaxınlığında Qızılüzən çayı üzərindəki körpü ("Qız körpüsü", XII yüzil) və b. Xüsusilə diqqəti cəlb edir.

Böyük inkişaf yolu keçmiş Şirvan-Abşeron memarlıq abidələri üçün daş konstruksiyalar, tikililərin həcm-məkan həllinin lakonikliyi, daş üzərində oyma bitki ornamentləri səciyyəvidir. Bakıdakı Sınıqqala minarəsi (1078, Məhəmməd Əbubəkr oğlu), Qız qalası (XII yüzil, memar Məsud Davud oğlu), Mərdəkan qalaları (Dairəvi qala, 1232, memar Əbdülməcid Məsud oğlu; Dördkünc qala, XIV yüzil), Nardaran qalası (1301, memar Mahmud Səd oğlu), Ramana qalası (XIV yüzil) və s. bu məktəbin ən yaxşı abidələri sırasına daxildir. XIII yüzildə Bakı limanında tikilmiş və hazırda suyun altında qalmış Şirvanşahların "Bayıl qəsri" adlı iqamətgahı da bu dövrün maraqlı tikililərindəndir. Bürclü divarlarla əhatə olunmuş bu binalar kompleksi (1235, usta Zeynəddin Əburəşimd oğlu Şirvani və ehtimal ki, memar Əbdülməcid Məsud oğlu) üzərindəki daş oymalar, yazı və təsvirlər qurşağı ilə birlikdə nadir memarlıq ansamblıdır. Şirvan-Abşeron memarlıq məktəbinə mənsub olan tikililərdən biri də XIII-XIV yüzillərdə formalaşmış Pirsaatçay xanəgahıdır. Pir Hüseyn türbəsinin ətrafında salınmış bu dini kompleksdəki minarənin üzərində onun tikilmə tarixi (1256) və memarın adı (Mahmud ibn Maqsud) qalmışdır. Mərəzədəki Diribaba türbəsi (1402), indiki Qusar rayonunun Həzrə kəndindəki Şeyx Cüneyd türbəsi (1544) və Bakıda Şirvanşahlar sarayı kompleksində (1420-60) Şirvan-Abşeron memarlıq məktəbinin yetkin dövrü əksini tapmışdır.

XIII yüzilin oratlarında Elxanilər dövlətinin yaranması memarlıq sahəsində müəyyən canlanmaya səbəb oldu. Elxanilər sülaləsinin banisi Hülakü xanın (1256-65) hakimiyyəti illərində Marağa rəsədxanası tikildi. Dövlətin paytaxtının Təbrizə köçürülməsi ilə bağlı Təbriz şəhəri önəmli memarlıq-sənətkarlıq mərkəzinə çevrildi. Təbrizin ətrafında Arquniyyə, Qazaniyyə, Rəşidiyyə kimi şəhərciklər salındı.

XV yüzilin sonu-XVI yüzilin əvvəllərində Səfəvilər dövlətinin yaranması və Təbrizin paytaxt elan edilməsi, eləcə də Şirvanın inzibati mərkəz kimi əhəmiyyətini itirməsi ilə bağlı Azərbaycanın siyasi və iqtisadi həyatı ölkənin güneyində mərkəzləşdi. Bu dövrdə şəhərlərin böyüməsi ilə bağlı bədii ənənələr yeni inkişaf mərhələsinə çatdı. Azərbaycan memarlığında Təbrizin mövqeyi xüsusilə gücləndi.

XV-XVI yüzillərdə Azərbaycan memar və nəqqaşları başqa ölkələrdə də fəaliyyət göstərmiş, müxtəlif şəhərlərdə maraqlı sənətkarlıq örnəkləri yaratmışlar. Bursa, Qahirə, Bağdad, Dəmirqapı (Dərbənd), Herat, Səmərqənd və s. şəhərlərdəki bir sıra memarlıq abidələrində Azərbaycan memarların "imzaları" qalmışdır. Bursa şəhərindəki ünlü Yaşıl türbənin (1420-21) nəfis naxışlarla bəzədilmiş qapılarını azərbaycanlı usta Əhməd Təbrizli hazırlamışdır. Türbənin yaxınlığındakı Yaşıl Camenin (1424) mehrabını Təbriz ustaları özlərinin hazırladıqları müxtəlif boyalı çinilərlə bəzəmişlər. Çaldıran vuruşmalarından (1514) sonra I Sultan Səlim tərəfindən İstanbula aparılmış Azərbaycan memar Əli Təbrizli (Əsir Əli, Əcəm Əli təxəllüsləri il də tanınmışdır) İstanbuldakı Topqapı sarayının baştağını və Sultan Səlim məscidini (1522) tikmişdir.

XVI-XVII yüzillər memarlığı müəyyən dərəcədə keçmiş dövr ənənələrinin davamı olmuşdur. XVI yüzildə müxtəlif şəhərsalma tədbirləri indiki Güney Azərbaycan ərazisində keçirilmişdir. XVII yüzil bir sıra şəhərlərin önəmli dərəcədə inkişafı və həmin şəhərlərdə mərkəzi komplekslərin yaradılması ilə əlamətdardır.

XVII-XVIII yüzillərdə ticarətin inkişafı ilə bağlı, müxtəlif aidiyyətli binaların tikintisi genişləndi. Şamaxı, Gəncə və Bakıda karvansaralar, Ərdəbil (Qeysəriyyə bazarı) və Təbrizdə örtülü bazarlar, eləcə də dini binalar və yaşayış evləri inşa edildi. Karvansaralar Şərqdə, o cümlədən Azərbaycanda özgün ictimai tikili olmuşdur. Həmin çağda Azərbaycan şəhərlərinin strukturunda yaşayış evləri və məscidlərdən sonra karvansaralar və onlarla bilavasitə bağlı olan ticarət tikililəri önəmli yer tuturdu.

Feodal Şərqinin başqa ölkələrindəki şəhərlərdə olduğu kimi, Azərbaycan şəhərlərində də hamam binaları geniş yayılmışdı. Hamamlar sanitariya-gigiyena funksiya daşımaqla yanaşı, həm də istirahət, görüş, söhbət və stolüstü oyunlar, habelə mərasimlər yeri idi. Azərbaycan hamalarının ən yaxşı örnəkləri Abşeronun Nardaran kəndində (1388, memar Kəştasif Musa oğlu), Bakının İçərişəhər bölməsində (Qasımbəy hamamı, XIV yüzil, Hacı Qayıb hamamı, (XV yüzil), Basqalda (XVII yüzil), Gəncədə ("Çökək hamam", XVII yüzil), Şuşada ("Merdinli" məhəlləsinin hamamı), Qubada ("Çuxur hamam"), Şəkidə ("Ağvanlar hamamı" - hər üçü XIX yüzil), Ağdamda (Abdal Gülablı kəndinin hamamı 1900, memar Kərbalayi Səfixan Qarabağı) qalmışdır.

XVIII yüzildə Azərbaycanın ayrı-ayrı xanlıqlara parçalanması, ölkənin iqtisadi cəhətdən dağınıqlığı memarlıq və inşaatın inkişafında durğunluğa səbəb oldu. Ayrı-ayrı hallarda keçmiş ənənələr əsasında tikilmiş binaların memarlıq həllində inşaat sənətinin geriləməsi özünü göstərir. Bununla yanaşı, şəhərsalma sənəti sahəsində müəyyən dönüş yarandı. İri şəhərlər və yaşayış məskənləri xanlıqların inzibati və sənətkarlıq mərkəzinə çevrildi.

XVIII yüzildə Qarabağ xanı Pənahəli xanın tikdirdiyi Əsgəran qalası (sonra İbrahim xan tərəfindən genişləndirilmişdi) bu dövrün ən iri müdafiə tikilisidir. Qarqar çayının sağ və sol sahillərində salınan Əsgəran qalası iki istehkamdan ibarətdir.

XVIII-XIX yüzillər xalq yaşayış evlərinin maraqlı örnəkləri Zaqatala, Şəki, Ordubad, Şuşa, Quba, Qonaqkənd, Gəncə və Abşeronda qalmışdır.

XV-XVIII yüzillərdə Azərbaycan memar, bənna və ustalardan Ustad Hacının oğlu (memar; Mərəzədəki Diribaba türbəsi, 1402), Məhəmməd Məcid Təbrizi (nəqqaş; Bursadakı Yaşıl camenin mehrabı, 1424), Əli ibn Hacı Əhməd (ağac üzərində oyma ustası; Bursadakı camenin qapısı), memar Əli (Məhəmməd Əli; Bakıda Şirvanşahlar sarayı kompleksində 1435 il tarixli türbə), Hacı Əhməd (memar; Dərbənddəki, "Qırxlar darvazası" və "Böyük məscid, XV yüzil), Yusif ibn Ustad Zahir (memar; Qəbələ rayonunun Həzrə kəndindəki Şeyx Bədrəddin türbəsi, 1446), Tacəddin (memar; Quba rayonunun Agbil kəndində türbə; 1446, qalmışdır), Xoca Əli Hasil Təbrizi (memar; Heratdakı Müsəlla ansamblının mədrəsəsi, XV yüzil), Səmsəddin (memar; Məşhəddə Şah məscidi, 1451), Nemətulla Bəvvab ibn Məhəmməd (xəttat və kaşı ustası; Təbrizdəki Göy məscidin kitabələri, 1465), Şəmsəddin Təbrizi (memar; İsfahandakı Ali məscid, 1522), Şəmsəddin Şəmaxi (memar; Qəbələ rayonunun Həzrə kəndindəki Şeyx Mənsur türbəsi, 1570), Əsir Əli (Təbriz; 1515-37 illərdə Türkiyənin İstanbul, Konya, Əskişəhər, Çorlu, Tekirdağ, Qəbzə, Trabzon, Hacılar, Bolqarıstanın Sofiya, Yuqoslaviyanın Sarayevo və b. şəhərlərində çoxlu bina tikilmişdir; əsas işləri - İstanbulda Topqapı sarayının 2-ci baştağı, Sultan Səlim məscidi, 1522; Sofiyada Seyfəddin Qazi məscidi Sarayevoda imarət, kitabxana, məscidlər kompleksi, 1532; Qəbzədə Çoban Mustafa məscidi və s.) Əmirşah Vəlyənkuhi (memar; Bakıda Şirvanşahlar sarayı ansamblının Şərq darvazasının daşdan oyma bəzəkli baştağı, 1584), Şeyx Bəhaəddin (memar və alim; Gəncənin cümə məscidi və ətrafındakı meydanın memarlıq ansamblı, 1606), Nadir Əli ibn Ustad Yarəli (memar; Mərdəkanda türbə, XVII yüzil), Pərviz (memar; Abşeronun Buzovna kəndinin qəbiristanlığında türbə, 1641), İsmayıl Nəqqaş Ərdəbili (xəttat və nəqqaş; Ərdəbildəki Şeyx Səfiəddin kompleksinin Ali qapı baştağının bəzəkləri, 1647), Yusifşah ibn Məlik Səfimai (memar; Şeyx Səfiəddin kompleksinin Ali qapı baştağı, 1647), Baba Şeyxican (memar; Mərəzə kəndində karvansara, 1613), Murad Əli (memar; Nardaranda Hacı Baxşı məscidi, 1663), Əbdüləzim Səhkar (memar; Şamaxı rayonunun Kələxana kəndindəki türbələr kompleksi, XVII yüzil), Baba Əli (memar; Abşeronun Məmmədli kəndində hamam, 1663), Məhərrəm (memar; Abşeronun Binə kəndində məscid, 1697), Bünyad (memar; Abşeronun Maştağa kəndində məscid, 1716), Abbasqulu (memar və nəqqaş; Şəki xanları sarayının böyük salonunun tavanının bəzəkləri; XVIII yüzil) və b. fəaliyyət göstərmişlər.

ORTA ƏSR MEMARLARI

Əcəmi Naxçıvani (XII əsr)



Memar Əcəmi və ya Əcəmi ibn Əbubəkr Naxçıvani (mənşəcə Azərbaycan türklərindən olan, XI–XII əsrlərdə indiki Azərbaycan ərazisində Naxçıvan memarlıq məktəbinin banisi və bir çox memarlıq əsərlərinin müəllifi.

Azərbaycan memarlıq məktəbinin banisi, Şərq dünyasının ən görkəmli memar və mühəndislərindən biridir. Öz dövründə göstərdiyi mühəndislik nailiyyətlərinə görə Şərqdə "Şeyxül-mühəndis" (mühəndislərin başçısı) titulu ilə tanınmışdır.

Əsas Əsərləri:

Yusif ibn Küseyir türbəsi (1162): Əcəminin Bizə çatmış ilk məlum əsəridir. Səkkizguşəli quruluşa malikdir və kərpic bəzək kompozisiyaları ilə seçilir.

Mömünə Xatun türbəsi (1186): Memarın şah əsəri hesab olunur. Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin həyat yoldaşının şərəfinə ucaldılmışdır. Onguşəli olan bu möhtəşəm abidənin üzərindəki həndəsi naxışlar, kufi xətti ilə yazılmış kitabələr və konstruktiv həllər orta əsr memarlığının zirvəsidir.

Naxçıvan Cümə məscidi və Qoşa minarəli portal (1187): Məscid günümüzə çatmasa da, tarixi mənbələr və çertyojlar onun möhtəşəmliyini təsdiqləyir. Portalın qalıqları isə Naxçıvan memarlıq kompleksinin tərkib hissəsi olmuşdur

Xacə Cəmaləddin (XII-XIII əsr)

Xacə Cəmaləddin — orta əsrlər zamanı Naxçıvan memarlıq məktəbinin ilk yetirmələrindən biri.

Onun adı Əlincəçay sahilində, el arasında "Şeyx Xorasan" adı ilə tanınan xanəgah kompleksinə daxil olan və özünün inşa etdiyi əsas türbənin kitabəsi əsasında aşkar olunmuş və elmi ictimaiyyətə və mədəniyyət tariximizə təqdim olunmuşdur.

Kitabədə memarın adının "hörmətli və alicənab" epitetləri ilə müşayiət olunması onun məşhur və böyük nüfuza malik sənətkar olmasından xəbər verir. Bu fikri onun daşıdığı, orta əsrlər zamanı görkəmli şəxsiyyətlərin adına əlavə olunan "Xacə" titulu da təsdiq edir. Çünki həmin dövrdə "xacə" titulu hər bir adama deyil, görkəmli sənətkarlara, alimlərə, şairlərə, öz işinin incəliklərinə yaxından bələd olan sənətkarlara, hətta dövlət başçılarına verilirdi. Kitabənin son hissəsi ovulub töküldüyü, tarixlər isə adətən bu hissədə yazıldığı üçün tarix məhv olmuşdur.

Xanəgah Memarlıq Kompleksi Culfa rayonunun Xanəgah kəndindən şimal-şərq tərəfdə yerləşir. Kompleks türbə, məscid və digər tikililərdən ibarətdir. Kitabəsindən məlum olur ki, kompleksin əsasını təşkil edən türbə Uluğ Qutluğ Lələ bəyin əmrilə Xacə Cəmaləddin tərəfindən inşa edilmişdir. Türbə memarlıq quruluşuna görə XII əsrə aid edilir.

Hafiz Naxçıvani (XIII-XIV əsr)



Hafiz Naxçıvani kimi tanınan məşhur orta əsr şəxsiyyəti XIII əsrin sonu və XIV əsrin birinci yarısında yaşamış görkəmli Azərbaycan memarı Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvanidir. O, Naxçıvan-Marağa memarlıq məktəbinin əsas nümayəndələrindən biri olub, unikal qülləvarı türbələr və memarlıq inciləri yaradıb.

Əsas Əsərləri: Bərdə türbəsi (1322): "Nüşabə qalası" kimi də bilinir. Firuzəyi kaşılar və kərpiclərin simmetrik düzülüşü ilə divarlarında "Allah" sözü dəqiqliklə əks olunub.Qarabağlar türbə kompleksi (XIV əsrin 30-cu illəri): Naxçıvanın Kəngərli rayonunda yerləşən möhtəşəm memarlıq abidəsidir.

Mahmud İbn Səd (XIII-XIV əsr)

Mahmud ibn Səd haqqında mənbələrdə geniş məlumat verilməsə də məlumdur ki, o 13-14-cü əsrlərdə yaşayan və Azərbaycanda fəaliyyət göstərən memar olub.

O, Bibiheybət məscidinin memarıdır. Məscidin portalın-dakı kitabədə 1281-82-ci illərdə II Fərruxzadın sifarişi ilə tikildiyi yazılıb. Məscidin divarındakı ərəbcə yazıda deyilir: "Mahmud ibn Sədin əməlidir". 1936-cı ildə bolşeviklər dinə qarşı mübarizə çərçivəsində məscidi tamamilə dağıtmışdılar. Onu da qeyd edək ki, İçərişəhərdəki Molla Əhməd məscidinin və Nardaran qalasının memarı da Mahmud ibn Səd olub.

Məhəmməd Əli (XIII-XIV əsr)



Memar Məhəmməd Əli (və ya memar Əli) XV əsrin birinci yarısında (1435–1436-cı illərdə) fəaliyyət göstərmiş Azərbaycan sənətkarıdır. (Qeyd: Sorğunuzdakı XIII-XIV əsr ifadəsi tarixi baxımdan bir qədər yanlışdır, çünki onun əsas və yeganə dəqiq təsdiqlənmiş əsəri XV əsrə aiddir). O, İçərişəhər də yerləşən məşhur Şirvanşahlar Sarayı kompleksindəki ailə türbəsinin memarıdır.

Əsas abidəsi: Şirvanşah I Xəlilullahın anası Bikə xanım və kiçik oğlu üçün inşa etdiyi Şirvanşahlar türbəsi.

Gizli imza: O dövrdə memarlara öz adlarını abidə üzərində yazmaq qadağan olunduğu üçün sənətkar "memar" sözünü tərsinə (güzgü vasitəsilə oxunan şəkildə) şifrləşdirərək medalyona həkk etmişdir: "Allah, memar Məhəmməd Əli".

Elmi kəşf: Memarın bu məharətli şifrəsi 1954-cü ildə şərqşünas alim Ələsgər Ələsgərzadə tərəfindən oxunaraq üzə çıxarılmışdır.

Hacı Zeynəlabdin Şirazi (XVIII əsr)

Şəki Xan sarayı Əsası Hacı Zeynalabdin Şirazi tərəfindən qoyulan (1789-1790-cı illər) Şəki xan sarayı Azərbaycan memarlığının incilərindən hesab olunur. Rusiya diyarşünası İ.L.Seqal yazır ki, 1797-ci ildə Məhəmmədhəsən xan "o zaman üçün möhtəşəm olan xan sarayı" inşa etdirmiş və 32.000 çervona başa gələn saraya görə xan xəzinəsi boşalmışdır. O, həm də qeyd edir ki, sarayın memarı məşhur Şiraz memarı Hacı Zeynal-Abdul olmuş və saray fars şahlarının yay saraylarının birindən kopyalanmışdır.

Əbdüləzim Səhkar (XVII əsr)

Əbdüləzim Sərkar 17 əsr Azərb. memarı. Şamaxı r-ndakı Kələxana türbələrinin müəllifidir. Bu türbələrdən birinin üzərində Ə.S.-ın adı həkk edilmişdir. "Sərkar" (başçı) ləqəbi də kompleksin tikintisinə rəhbərlik etməsi ilə əlaqədardır. Həcm-fəza quruluşunun mütənasibliyi və eynitipli türbələrin fərdi xüsusiyyətlərə malik olması memarın yaradıcılıq üslubunu təşkil edir.

Əd.: С а л а м з а д е А. Архитектура мавзолеев Азербайджана XVI–XIX вв., Изв. АН Азерб. ССР, 1961, № 3.

Murad Əli (XVII əsr)

Murad Əli XVII əsrdə yaşayıb-yaratmış tanınmış Azərbaycan memarıdır. O, II Şah Abbasın hakimiyyəti dövründə, 1663-cü ildə Bakının Nardaran qəsəbəsində ölkə əhəmiyyətli tarix-memarlıq abidəsi olan Hacı Baxşı məscidini (Şah Abbas məscidi) inşa etmişdir.

Binanın üzərindəki kitabədə abidənin memar Muradəli tərəfindən tikildiyi göstərilir. İstər quruluşca, istərsə texniki cəhətdən Nardaran məscidi XV əsr Şirvan məscidlərinə oxşayır. Burada xüsusən daşların incə zövqlə, xüsusi şəkildə yonulmasını qeyd etməliyik. Nardaran məscidi Şirvanşahlar saray kompleksindəki binalar kimi yüksək keyfiyyətdə tikilmişdir.

Zeynəddin Şirvani (XIII əsr)

Zeynəddin Əburəşid oğlu Şirvani — mənşəcə Azərbaycan türklərindən olan, XIII əsrlərdə indiki Azərbaycan ərazisində fəaliyyət göstərmiş və dünya şöhrəti qazanmış memar.

13 əsr Azərbaycan nəqqaşı. Bakı limanında Şirvanşahların "Bayıl qəsri"/Bayıl qalası iqamətgahının yaradılmasında rolu olmuşdur. Qəsrin divarında hörülmüş dördbucaqlı daş lövhə üzərindəki kitabədə "Ustad Zeynəddin Əburəşid oğlu Şirvaninin əsəridir" sözləri həkk edilmişdir. Kitabədəki "nəqqaş", "peşəkar" ifadələrindən abidənin naxış və təsvirlərinin də ona aid olması ehtimal edilir.

Tariximizin nişanəsi - Bayıl qalası

Qədim abidələr Azərbaycan tarixinin nişanələridir. Əsrlər onlara təsirsiz keçib getməyib. Bir çoxu günümüzə ya tamamilə, ya da qismən dağılmış vəziyyətdə çatıb. Bəziləri göz önündə olsa da, elələri var ki, uzun illər sirr kimi qalır. Təbiət hadisələrinin və ya müharibələrin gətirdikləri bəlalar, fəlakətlər səbəbindən itib-batır. Bəzən təsadüf nəticəsində, əkin və ya qazıntı işləri aparılarkən əcdadlarımızın gündəlik həyatda istifadə etdikləri məişət əşyalarının qalıqları, zərgərlik məmulatları və digər nümunələr aşkarlanır.

Onları araşdıran mütəxəssislər tarixin müəyyən dövrləri barədə məlumatlar verirlər. Bəzən isə yerin altında qalmış evlər, şəhərlər üzə çıxır. Haqqında danışacağımız abidə isə torpağın deyil, suyun altında qalıb. Zaman-zaman Xəzər dənizinin suyunun qalxıb-enməsi ilə gah dənizin üzünə çıxan, gah da sulara qərq olan həmin memarlıq abidəsi Bayıl qalası, yaxud Bayıl qəsri adlanır. Mənbələrdə bura başqa adlarla - "Sualtı şəhər", "Bayıl daşları", "Səbayıl qalası", "Karvansara", "Xanəgah", "Kömrükxana" və başqa adlar ilə xatırlanıb. Elmi ədəbiyyatda isə daha çox "Bayıl qəsri" kimi qeyd olunur.

Şirvan-Abşeron memarlıq məktəbinin ən gözəl nümunələrindən sayılan bu abidə Bakının Bayıl burnu yaxınlığında, Karvansara adasında yerləşir.

Bu abidə XIII əsrin yadigarıdır. Belə ki, indi dəniz sularının altında qalmış tarixi memarlıq abidəsinin inşasına 1234-cü ildə - dünyanın qarışıq vaxtlarında başlanılıb. Monqol yürüşləri bütün Yaxın Şərqi vəlvələyə saldığı illərdə davam edən tikinti işləri 1235-ci ildə yekunlaşıb. Bu möhtəşəm abidə inşa edənlərin ümid etdiyi kimi, əsrlər boyu əzəmətlə dayana bilmədi. Sahilə yaxın adada tikilən qəsrin ömrü çox qısa sürdü. Araşdırıcıların qənaətincə, 1306-cı ildə baş verən güclü zəlzələ onun dənizdə batmasına səbəb oldu.

Aradan əsrlər gəlib-keçdi. Xəzər dənizinin səviyyəsi yenidən endi. Və Bayıl qəsri su üzündə görünməyə başladı. Araşdırıcıların əksəriyyətinin fikrinə əsaslanaraq deyə bilərik ki, dörd əsrdən artıq Xəzər suları altında, gizlində qalmasaydı, bu qalanın da Abşeronun bir çox abidələri kimi izi belə itəcəkdi.

O da bildirilib ki, Bayıl qalasının cənub qapısı və qarşısındakı tikililər dəniz ticarəti ilə bağlı olduğu halda, sahilə yaxın şimal qapısı və qarşısındakı tikililər Şirvanşahların iqamətgahı imiş. Bayıl qəsrinin ortasında daş döşəməli meydançada monumental bir tikilinin özülü aşkarlanıb. Bir sıra tədqiqatçılar həmin yerdə Abşeron qalalarının ənənəvi qüllələri tipində bir qüllənin ucaldığını qeyd ediblər. Araşdırıcıların əksəriyyəti onu atəşgah və ya məbəd qalıqları hesab edirlər. XII-XIII əsrlərdə möhkəm qəsr, qala liman olaraq inşa edilən, Bakının dənizdən qorunmasında müstəsna yer

tutan Bayıl qəsrinin daha qədim bir memarlıq kompleksinin özülləri üzərində ucaldılması ehtimalları da mövcuddur.

Mütəxəssislər bildiriblər ki, Dərbənd qalası, Şamaxı qalası, Bakı qalası, Gülüstan qalası və Qəley-Buğurt qalasında olduğu kimi, Bayıl qalasının memarlıq tərtibatında da bədii daş relyeflərdən, yonma daş fiqurlardan istifadə olunub.

Bayıl qəsrinin on beş qülləsi var ki, onlardan yalnız şimal-qərbindəki və cənubundakı iki qüllə dairəvi formadadır və içərisi boşdur. Digər qüllələrin isə içərisi bütövdür və hamısı yarımdairə şəklindədir.

Tariximizin izlərini özündə əks etdirən abidələrdən biri olan Bayıl qalasının üzə çıxmasından və tədqiqinə başlanmasından uzun illər ötür. Abidənin Xəzər dənizinin dibində olması isə elm aləminə çoxdan məlum idi. Hələ 1782-ci ildə rus xəritəçiləri tərəfindən tərtib edilmiş Bakı limanının xəritəsində "Bayıl daşları"nın sudan çıxmağa başladığı qeyd olunub. 1848-ci ildə Bakıda olmuş görkəmli rus şərqşünası İ.N.Berezin və Azərbaycanın görkəmli alimi Abbasqulu ağa Bakıxanov da Bayıl tərəfdə dənizin içərisindəki tikinti qalıqları haqqında maraqlı məlumatlar veriblər.

Qəsrin ərazisində 1939-1969-cu illərdə həyata keçirilən arxeoloji tədqiqat nəticəsində divar uçuqları altından və su dibindən 700-dən çox yazılı daş tavalar çıxarılıb.

Tədqiqatçılar Bayıl qəsrinin daş kitabələrində 15 Şirvanşahın adını, tikinti tarixlərini oxuyub. Eyni zamanda digər müxtəlif məlumatlar aşkarlayıblar. Həmin kitabələrdən Mərdəkan qalasında "müəllif qolu" olan memar Əbdülməcid Məsud oğlunun, Ustad Zeynəddin Əbdürrəşid oğlu Şirvaninin adları oxunub.

Araşdırmalar zamanı abidənin dövrünü təsdiqləyən materiallar da aşkarlanıb. Belə ki, bəzi daşların üzərində hicri 632-ci il tarixi yazılıb. Bu da miladi 1232-1235-ci illərə müvafiqdir. Bundan başqa, ərazidən 1939-cu ildə tapılan mis pullar üzərində Şirvanşah Güştasp Fərruxzadə və Xəlif əl-Nəsirin (1180-1225) adları həkk olunub.

Tədqiqatlar nəticəsində əldə olunan dəyərli faktlardan biri də kitabə daşlarından birində Bayıl qəsrinin "Bəndər qələ" adı ilə verilməsidir. Liman qala olan bu adın Bayıl qalasının baş funksiyalarından birini aydınlaşdırdığı bildirilib. Məlumata əsasən, Bayıl qəsri Şirvanşahların yeni paytaxt şəhəri yanında iqamətgahı olub, Şamaxı qalasının müdafiəsində Gülüstan qalasının daşıdığı vəzifəni Bakı qalasının müdafiəsində Bayıl qalası daşıyıb.[1]

Məsud Davud oğlu (XII əsr)

Məsud ibn Davud — XII əsrdə Bakı şəhərində Qız qalasını layihələndirmiş memar. Azərbaycan tarixçisi Sara Aşurbəyliyə görə, Məsud ibn Davud böyük ehtimalla Dairəvi Mərdəkan qalasının memarı Əbdülməcid Məsud oğlunun atasıdır.

Tarixin sirli qalası: Qız qalası

Bakı şəhərinin ürəyi sayılan Qız qalası minilliklər boyu əsrarəngiz gözəlliyi ilə dünyanın marağına səbəb olub. Tarixin yaddaşında abidələr incisi kimi parlaqlıq saçan bu möhtəşəm qala, təkcə müdafiə məqsədilə tikilsə də, insan sirləri

[1] https://www.azerbaijan-news.az/az/posts/detail/tariximizin-nisanesi-bayil-qalasi-1713393979

açmağa meyilli olduğu halda, o, zamanın dərinliklərində bütün gizli məqamları sükutla qoruyub saxlayır.

Qız qalasının zirvəsinə qalxanda, sanki əsrlərin içindən keçib o dövrə düşürəm. Divarlar mənə pıçıldayır—sanki zamanın sirrini bölüşmək istəyirlər. Bakı buradan başqa cür görünür—keçmiş və indinin bir araya gəldiyi mistik mənzərə kimi.

Bəzi sənədlərə əsasən, qalanın memarı kimi Məsud ibn Davudun adı göstərilir. Lakin bu ehtimal sadəcə bir fərziyyə deyil, çünki Qız qalasının divarlarında kufi yazıları tapılmışdır. Divarlardakı bir kitabədə "Davudun oğlu Məsudun qülləsi" ifadəsi yer alır. Bu yazı qalaya memarın öz möhürünü vurduğunu göstərir və onun abidənin tikinti prosesində əsas fiqur olduğunu ehtimal etməyə imkan verir.

Bəzi tədqiqatçılar bu yazının memarın imzası olduğunu, onun abidənin yaradılmasında birbaşa iştirak etdiyini düşünürlər. Lakin başqa tarixçilər belə hesab edirlər ki, Məsud ibn Davud abidənin inşasına nəzarət edən feodal hakim ola bilər.

Qız Qalası—Bakı şəhərinin qədim qala divarlarının cənub-şərq hissəsində, dənizkənarı parkın yaxınlığında yerləşən möhtəşəm müdafiə tikilisidir. Bu uca qülləvari memarlıq incisi hələ də tam açılmamış tarixi və memarlıq sirlərini qoruyub saxlayır.

Qalanın hündürlüyü 28 metr, diametri birinci mərtəbədə 16,5 metr, divar qalınlığı isə 5 metrə qədərdir. İçərisi səkkiz mərtəbəyə bölünmüşdür. Hər mərtəbə yonma daşlardan tikilmiş, günbəz formalı tavanla örtülmüşdür. 1964-cü ildən muzey kimi fəaliyyət göstərən qala, 2000-ci ildə UNESCO-nun Ümumdünya İrsi siyahısına daxil edilmişdir.

Qalanın memarlıq quruluşunda sirli detallar var—dairəvi deşiklər şaquli xətt boyunca yerləşir. Belə ki, VIII mərtəbənin ortasındakı dairəvi deşikdən baxdıqda birinci mərtəbənin döşəməsini aydın görmək mümkündür. Qalanın tək giriş yolu qərb tərəfində yerləşir—tağlı qapının eni 1,1 metr, yerin əvvəlki səthindən hündürlüyü isə 2 metrdir.

Azərbaycanın milli emblemlərindən biri olan Qız qalası, pul əskinaslarında dəfələrlə təsvir edilmiş, həm də Novruz bayramı şənliklərinin ənənəvi məkanına çevrilmişdir.

Bu qala, təkcə memarlıq nümunəsi deyil—o, Azərbaycanın zamanla danışan səssiz şahididir. Onun əfsanəsi dahi Cəfər Cabbarlının yaradıcılığına ilham vermiş, poema şəklində əbədiləşmişdir. Görkəmli bəstəkar Əfrasiyab Bədəlbəyli, Qız qalası poeması əsasında möhtəşəm bir balet bəstələmişdir. Bu əsər daha sonra Opera və Balet Teatrında səhnələşdirilərək tamaşaçılara təqdim olunmuşdur.

Bəzi tədqiqatçılar fərz edirlər ki, Qız qalası yalnız müdafiə məqsədilə inşa edilib. Azərbaycanın şimal sərhədlərini qorumaq üçün qurulan istehkam sisteminin bir hissəsi kimi Dərbənd qalası, Gilgilçay istehkamı və Çıraqqala ilə birlikdə Bakı şəhərinin təhlükəsizliyinə töhfə vermişdir.

Lakin müəyyən fərziyyələr göstərir ki, Qız qalası həm də rəsədxana kimi istifadə edilmiş ola bilər. Bu iddianın nə dərəcədə doğru olduğunu qəti bilmək çətindir—çünki bu, tarixçilər və alimlərin tədqiqatlarına bağlı məsələdir. Amma qaladakı dairəvi deşiklər və günbəzli tavanlar qədim dövrlərdə göy cisimlərinin müşahidəsi üçün xüsusi olaraq dizayn edilmiş ola biləcəyini göstərir.

Bəzi tədqiqatçılar hesab edirlər ki, Qız qalası hətta atəşpərəstlik məbədi kimi də fəaliyyət göstərmişdir. Zərdüştlük dinində təbiətin dörd ünsürü— hava, od, su və torpaq müqəddəs sayılırdı. Qalanın yaxınlığında tapılan tuncdan düzəldilmiş balıq fiquru, su ilahəsinə həsr olunmuş ibadətgah ola biləcəyi ehtimalını yaradır.

Qız qalasına sadəcə fiziki bir bina kimi baxmaq olmaz. O, Azərbaycan abidələri içərisində artıq simvollaşmış, tarixi və mistik əfsanəyə çevrilmiş bir memarlıq incisidir.

Qız qalası təkcə adi bir daş yığını deyil. O, əsrlərin şahididir, zamanın susqun dili, tarixin pıçıltısıdır. Minillərin nəfəsi, keçmişin izləri və açılmayan sirlər bu divarların arasında yaşayır.

Bu abidə Azərbaycanın hafizəsi, yaddaş daşıdır. O, qədim illərin hikmətini, xalqın öyüdünü və gələcəyin inamını özündə ehtiva edir. Qız qalası Bakı səmasının altında sirli bir əfsanəyə

çevrilmişdir. Lakin onun hekayəsini tam açmaq mümkün deyil—bəlkə də bəzi sirlər həmişə daşların içində qalmalıdır.[2]

Müəllif: Fuad BİLƏSUVARLI, AYB üzvü və AJB üzvü, Prezident mükafatçısı.

İbrahim Osmanoğlu (XI əsr)

Gəncə qapıları Şəddadi hökmdarı Əbüləsvar Şavurun göstərişi ilə 1063-cü ildə **Usta İbrahim Osmanoğlu** tərəfindən hazırlanıb. IX-XI əsrlərdə Azərbaycan ərazisinə qarətçi yürüşlərin intensiv xarakter alması həmin dövrdə Şəddadilər dövlətinin paytaxtı olan Gəncənin müdafiəsinin gücləndirilməsini tarixi bir zərurətə çevirir. Bu səbəbdən Gəncə qapıları hazırlanaraq ətrafı su ilə doldurulmuş dərin xəndəklərlə əhatə olunur. 1139-cu ildə Gəncə zəlzələsi zamanı şəhərə qarət məqsədilə hücum etmiş gürcülər tərəfindən Gürcüstana aparılır və hazırda bir tayı Gelati monastırında saxlanılır. Akademik Rafael Əhmədov 2000-ci ilə qədər qədim şəhər xarabalıqlarında apardığı arxeoloji qazıntılar zamanı Gəncə qapılarının qalıqlarını tapıb. 2008-ci ildə isə Heydər Əliyev Fondu tərəfindən ilkin şəkildə bərpa edilib və şəhərin girişində qurulub.

Əli Məcidəddin (XIII əsr)

Əli Məcidəddin XIII əsrdə Qarabağda yaşamış məşhur Azərbaycan memarıdır. O, dövrün görkəmli memarlıq məktəblərindən birinə rəhbərlik etmiş və əsasən daş üzərində bədii naxışlar, eləcə də türbə tikintisi ilə tanınmışdır.

Türbədə Şeyx Babı Yaqubi dəfn olunub. Türbə 1273—1274-cü illərdə memar Əli Məcidəddin tərəfindən tikilib. Türbə səkkiz güşəlidir. Ağ daşdan hörülüb və üstü səkkiz güşəli çatma günbəzlə örtülüb. Şeyx Babı türbəsinin xarici səth bölgülərində Mömünə Xatun türbəsinin təsiri görünür. Xalq arasında "Şıxbaba türbəsi" adıyla tanınan bu abidə Füzuli rayonunun Babı kəndinin yaxınlığında salınmış qəbiristanlıqdadır. Rəvayətə görə, Şeyxin cənazəsi daş qutuda, türbənin cənub pəncərəsi önündə dəfn olunmuşdur. Məqbərədəki kitabənin oxunuşuna nail olan ilk rus alimi N. Xanıkov deyib ki, Şeyx Babı Yaqub türbəsi 1271—1272-ci illərdə Məşədi Babı Yaqub ibn Saadın əmri ilə tikilib. Kitabədəki yazılar ərəb dilində olduğundan, tərcümə edilib. Məşədixanım Nemətin tərcüməsindən müəyyən olunub ki, bu müqəddəs türbənin zahid, kamil Şeyx Babı Yaqub ibn İsmayıl Qur Xər üçün tikilməsinə Hicri təqvimi ilə 672-ci ildə (Miladi 1273—1274-cü illər) əmr verilib. Məzarın sinədaşı üzərindəki yazılar tərcümə edilib. Orada yazılıb ki;

" "Bu müqəddəs türbə Zahid, Kamal, Şeyx Babı Yaqub ibn İsmayıl Qur Xər üçün tikilib."

[2] https://aia.az/105924-tarixin-sirli-qalasi-qiz-qalasi-fuad-bilesuvarli-yazir.html

Şeyx Bahauddin (XVII əsr)

Şeyx Bəhaəddin (XVI əsr – XVII əsr) — XVI əsrin ikinci yarısı — XVII əsrin əvvəllərində yaşamış Azərbaycan memarı və alimi. Gəncənin XVII əsrin əvvəllərində tikilmiş mərkəzi ansamblının müəllifidir.

Gəncənin XVII əsrin əvvəllərində tikilmiş mərkəzi ansamblının müəllifidir. Belə ki, Gəncənin mərkəzində yerləşən Şah Abbas məscidinin, Çökək hamamın, Şah Abbas karvansarasının memarı odur. Tovuzun Yanıqlı kəndində yerləşən XVII əsrə məscidin də memarının Şeyx Bəhaəddin olduğu ehtimal edilir.

Əsas Memarlıq Əsərləri:



Şah Abbas məscidi (Cümə məscidi, 1606) — qırmızı kərpicdən inşa edilmişdir.

Çökək hamam (1606) — orijinal memarlıq quruluşuna malik tarixi hamam binasıdır.

Uğurlu Xan karvansarası — XVII əsrə aid ticarət-memarlıq kompleksidir.

Şah Abbas karvansarası — şəhərin ticarət həyatında mühüm rol oynamışdır.